# "BİR MƏHBUSUN GÜNDƏLİYİ"

## Roman barədə oxucu düşüncələri




**Öncədən deyim ki, indi barəsində fikirlərimi bölüşmək istədiyim romanın müəllifi çox məhsuldar yazıçıdı. Deməl olar ki, o, özünün yeni hekayə, povest, roman, eləcə də publisist yazıları da həmişə gündəmdədi və oxucunun diqqətini özünə çəkməyi bacarır. Bu işdə onun kitablarının tərtibatçıları da müəyyən rol oynayırlar. Çünki kitablar estetik baxımdan dərhal diqqəti özünə çəkir. O ki, qaldı indi barəsində fikirlərimi bölüşəcəyim romana... Açığını deyim ki, məni əvvəlcə romanın adı özünə çəkdi və hardasa müxtəlif illərdə həm ölkə, həm də xarici ədəbiyyat adamlarının əsərlərində rast gəldiyim bu oxşarlıq bir növü məni köklədi. İstədim ki, romanı tez bir zamanda oxuyum və görüm xatirələrimlə indi oxuyacağım roman arasıda olan bu zahiri oxşarlıq daxilən necədi?..**

Bəli, 263 səhifəlik bü romanı oxuyub başa çıxdım. Roman boyu mən müəllifin bu əsəri birnəfəsə yazdığını təxmin etdim. Çünki hadisələr, təsvirlər arasında boşluq, fasilə, dayanma yoxdur. Elə bil ki, hansısa bir böyük, necə deyərlər, 40 otaqlıq zalı gəzirsən və otaqdan otağa keçdikcə də əvvəldə gördüklərin qarşına çıxanla bir-birinə elə bağlanır ki, sannik bir zəncirvari bir prosesin içərisində olursan. Alt mərtəbədən üzü yuxarı qalxdıqca hadisə də inkişaf edir, proses də öz axarı ilə gedir və sən yorulmursan. Çünki yorulmağına vaxtın qalmır. Bax, ilk təəssüratım belə oldu romanla bağlı. Sonra onun bir ədəbi məhsul kimi cizgilərini araşdırmağa başladım. Yəni özüm duyduğum, özüm gördüyüm kimi onları qeyd etməyə çalışdım. Və bu qeydlərimi sonra yazı şəklinə çevirəndə gördüm ki, "Bir məhbusun gündəliyi" həm də bir xatirədi, gündəlikdi. Yəni müəllif bu romanda yalnız ilk təmasda, yəni əsərin proloqunda özünü təqdim edir. Bu təqdimat da həbsxanada, onun bir yazıçı kimi görüşə etməsi ilə başlayır. Bir qrup söz, sənət adamının, hüquq müdafiəçisinin qadın həbsxanasına getməsi, burada cəzaçəkənlərlə görüşməsi və həmin o görüşdən yaranan təəssüratın aurasında müəllifə təqdim edilən gündəlik... Bax, bütün bui lk baxışdan qısa məqamlar, yəni həbsxanaya görüşə etmək, həbsxananın aurası və bir də həmin həbsxanada müəllifə tanış olmaq üçün verilən gündəlik... Elə bütün məsələnin canı da, qanı da bax, bu üç nöqtənin birləşdiyi gündəlikdədi.

Mən bu romanı oxuduqca əsas qəhrəmanın, yəni Sərdarın timsalında ümumiləşdirilmiş bir obrazı gördüm. Açığını deyim ki, müəllifin bu obraza heç bir məqamda sevgisi, diqqəti hiss olunmur. Əksin, polis rəisi olmuş, sonra prokuror kimi fəaliyyət göstərən və əməllərinə görə də özündən xeyli kiçik yaşlı məktəbli qızı götürüb qaçıb zorla özünə xanım yox ha, arvad edən Sərdar sonda da məhz arvadı tərəfindən küt alətlə öldürülür. Özü də bu proses öz işgəncə səhnələri ilə bu ailənin övladlarının gözü qarşısında baş verir. Hətta müəllifin Sərdara qəzəbi, nifrəti o boydadı ki, o, qəhrəmanını bir valideyn kimi də aşağılayır, onun ata adına layiq olmadığını da bütün cigilərlə sərgiləyir. Yəni öz dili ilə deməsə də, hadisələrin fonunda böyük bir səlahiyyət sahibi olan insanın təkcə rüşvətxor, əzazil deyil, həm də əyyaş, tamahkar kimi də oxucu qarşısına çıxarır. Üstəlik, rayonun polis rəisi kimi, prokuroru kimi əhali arasında nifrət ünvanı olması da qabardılır.

Elə burdaca etiraf edim ki, mən müəllifin öz baş qəhrəmanına qarşı amansızlığının bir detalını da Sərdarın öz doğma anası, qardaşı tərəfindən də qəbul olunmamasında da gördüm. Görün bu qəhrəman nə qədər çirkab içərisindədir ki, onu dünyaya gətirən ana da, onunla bir genə aid olan qardaş da Sərdara qarşı acıqlıdı, əsəbidi, onun eyiblərini üzünə deməkdən çəkinmirlər, onu sancmaqdan bir növü usanmırlar. Bütün bunlar isə gündəliyin sahibi olan Züleyxanın bir ailə dramıdı. Təbii ki, bu ilk baxışdan belədi. Amma əslində isə Sərdar aid olduğu cəmiyyətin dramının qəhrəmanıdı. O cəmiyyətin ki, orda adamlar öz hüquqlarını qorumaqda çətinlik çəkirlər, öz haqlarını tələb etməkdə köməksizdilər. Xüsusilə qadınlar sevginin yox, vəzifənin, gücün itaətindədilər.

Bəli, mən bu romanı oxuyub başa çıxanda gördüm ki, ümumiləşdirilmiş personaj olan Sərdar həm də bir məmur kimi çoxlarının xarakterlərini özündə birləşdirib. O, rəis olanda da, prokuror olanda da qanunları pula, hərisliyə, özünün iddialarına tabe edib. Qanun şah yox, Sərdarın tələbləri, məramı, məqsədi şah olubdu. Ona görə də onun bu məmur cizgiləri oxucuda əsəb, ikrah yaratsa da, həm də müəyyən zaman kəsiyini onun yadına salır, keçmişin heyflərini yenidən göz önündə canlandırır. Deməli, romanın da uğuru müəllifin də nöqtəsini qoyub oxucunun ixtiyarına verdiyi əsərin də nailiyyəti elə budur. Yəni romanı oxuyan həm dünəndən, həm də bu gündən paralellər görür, oxşarlıqlar tapır və nəhayət, öz hüququ barəsində düşünür. Mən bir oxucu olaraq romandan özüm üçün götürdüyüm, yiyələndiyim məhz bu təəssüratdı. Təbii ki, bu isti-isti yaranmış oxucu təəssüratıdı. Kimlərsə başqa məqamları da, başqa cizgiləri də görüb şərh etməkdə sərbəstdilər. Axı roman indi hamınındı.

**P.S. Elə burdaca xatırladım ki, bu romanın müəllifi Salatın Əhmədlidi.**

**Əbülfət MƏDƏTOĞLU**